**Akaş P.Karia**

**“Fikrinizi TED kimi çatdırın: Təsirli natiqliyin əsas prinsipləri” kitabı haqqında təriflər**

“Akaş dünyanın tanınmış natiq və təqdimatçılarının istifadə etdikləri ən yaxşı ideyaları, alətləri və prosesləri bir kitabda toplayıb. O bunları addım-addım oxunaqlı bir bələdçiyə çevirib ki, bu da sizə kütlədən seçilməyə kömək edəcək təqdimatları kəşf etməyə, inkişaf etdirməyə və çatdırmağa kömək edəcək”.

**– Maykl Devis, “Speaking CPR”,**
*sertifikatlı dünya səviyyəli nitq təlimçisi*

“Karianın bu kitabda təqdim etdiyi əməli texnika və strategiyaların əhatə dairəsi, eyni zamanda, dərinliyi məni valeh etdi. Apardığı geniş araşdırmalar sayəsində bu üsulların necə tətbiq olunacağına dair çoxlu sayda aydın nümunələr təqdim edə bilir ki, bu da, xüsusilə həmin texnikalarla tanış olmayanlar üçün, həqiqətən, böyük fərq yaradır. Kitab, əsasən, TED çıxışı hazırlayanlar üçün nəzərdə tutulsa da, təqdimat bacarıqlarını təkmilləşdirmək istəyən hər kəsin istifadə edə biləcəyi təlimatlar təklif edir”.

**– Ket Deli,**
*prezentasiyalar üzrə mütəxəssis*

“Bəlkə də, oxuduğum ən aydın təqdimat kitablarından biri idi. İnanılmaz dərəcədə sadə və oxunaqlıdır, lakin geniş mövzu dairəsini əhatə edir. Praktiki məsləhətlər, real nümunələr və şəxsi təcrübələrlə doludur”.

**– Xavyer,**
*“Amazon”dan oxucu rəyi*

“Heyrətamiz və yaddaqalan nitq hazırlamaq üçün faydalı kitab”.

**– Tania de Vinnie**

“...bu kitab daha təsirli natiq olmağınıza kömək etmək üçün aydın nümunələrlə faydalı üsullar təklif edir”.

**– Amey Hec,**
*motivasiya üzrə natiq və korporativ təlimçi*

“Fikrinizi TED kimi çatdırın: Təsirli natiqliyin əsas prinsipləri” kitabı istənilən təqdimatı yaxşı çatdırmaq üçün təcrübi ideyalarla doludur”.

**– Keti Bolger,**
*təqdimat bacarıqları təlimatçısı*

“Əla TED çıxışı üçün sadə yol xəritəsi. Təcrübəli bir “Toastmaster” və “TEDxYouth@FortWorth”ün təlimatçısı və komitə üzvü olaraq deyə bilərəm ki, bu kitab dinamik və yaddaqalan TED çıxışı hazırlamaq və çatdırmaq üçün bütün əsas məqamlara toxunur”.

**– Filip D.Menn,**
*“Toastmaster” və TED həvəskarı*

Akaş P.Karia

# FİKRİNİZİ TED KİMİ ÇATDIRIN

## Təsirli natiqliyin əsas prinsipləri

İngiliscədən tərcümə:
Jalə Ruslan

qanun nəşriyyatı

Akash P. Karia

# HOW TO DELIVER A GREAT TED TALK

## Presentation Secrets of the World's Best Speakers

Bu kitab ictimai çıxış sənətini mənimsəmək istəyənlər üçün zəngin xəzinədir. “Fikrinizi TED kimi çatdırın: Təsirli natiqliyin əsas prinsipləri” kitabı TED konfranslarının cazibədar dünyasına nüfuz edərək uğurlu natiqlərin sirlərini açır və oxucuları təsirli nitq ustalarına çevirir. Müəllif ictimai çıxışın incəliklərini sadə və anlaşılan bir dildə təqdim edir, fikrin toxumundan başlayaraq, onu çiçəklənən bir çıxışa çevirmək üçün lazım olan bütün mərhələləri əhatə edir. Mövzu seçimindən tutmuş auditoriyanı ovsunlayan giriş cümlələrinə, çıxışın məntiqi quruluşundan tutmuş emosional təsir yaradan şəxsi hekayələrə qədər hər bir element dərindən araşdırılır. Əsər, sadəcə, nəzəri biliklərlə kifayətlənmir. O, oxucuları əməli məşqlərə cəlb edir, onlara öz səs tonlarından istifadə etməyə və bənzərsiz üslublarını formalaşdırmağa kömək edir.

Bu kitab TED səhnəsini fəth etmək istəyənlərdən başqa, eyni zamanda, korporativ toplantılarda, akademik mühitdə, hətta gündəlik həyatda öz fikirlərini daha təsirli şəkildə çatdırmaq istəyənlər üçün də əvəzsiz bir bələdçidir. “Fikrinizi TED kimi çatdırın: Təsirli natiqliyin əsas prinsipləri” oxuculara ilhamverici nitqin gücünü kəşf etmək və bu gücü öz həyatında tətbiq etmək imkanı verir.

# M Ü N D Ə R İ C A T

*Giriş.* BU KİTABIN BÖYÜK VƏDİ ........ 9
SİZİN PULSUZ HƏDİYYƏLƏRİNİZ ........ 10
TED ÇIXIŞLARI ÜÇÜN UĞUR PRİNSİPLƏRİ ........ 12

**Birinci hissə: SADƏ**

*Birinci fəsil.* ƏSAS FİKRİNİZİ NECƏ MÜƏYYƏNLƏŞDİRƏ BİLƏRSİNİZ? ........ 18
*İkinci fəsil.* TƏKRARLANAN TƏSİRLİ İFADƏ YARATMAQ ........ 23
*Üçüncü fəsil.* GÜCLÜ TƏQDİMATLAR ÜÇÜN ABC-C FORMULU ........ 27
*Dördüncü fəsil.* DİQQƏTÇƏKƏN AÇILIŞ ETMƏK ........ 34
*Beşinci fəsil.* ÇIXIŞINIZIN ƏSAS HİSSƏSİNİN QURULMASI ........ 52
*Altıncı fəsil.* TƏSİRLİ YEKUNLAŞDIRMA ........ 64

**İkinci hissə: GÖZLƏNİLMƏZ**

*Yeddinci fəsil.* DİQQƏTİ CƏLB ETMƏK ÜÇÜN STATİSTİKADAN İSTİFADƏ ........ 72
*Səkkizinci fəsil*. AUDİTORİYAYA YENİLİK TƏQDİM ETMƏK ........ 80
*Doqquzuncu fəsil.* “VAU!” ANI YARATMAQ ........ 88

**Üçüncü hissə: KONKRETLİK**

*Onuncu fəsil.* SPESİFİK OLUN ........ 92
*On birinci fəsil.* OBRAZLARINIZI NECƏ CANLANDIRMALI? ........ 96
*On ikinci fəsil.* HEKAYƏLƏRİNİZİ ZEHNİ FİLMLƏRƏ NECƏ ÇEVİRMƏLİ? ........ 98
*On üçüncü fəsil.* ANALOGİYA, METAFOR VƏ BƏNZƏTMƏLƏRİN İSTİFADƏSİ ........ 101

**Dördüncü hissə: İNANDIRICI**

*On dördüncü fəsil.* GİRİŞLƏ ETİMAD QAZANMAQ .......... 106
*On beşinci fəsil.* MESAJLARINIZA DAXİLİ ETİBARLILIQ ƏLAVƏ ETMƏK .......... 113

**Beşinci hissə: EMOSİONAL**

*On altıncı fəsil.* AUDİTORİYA İLƏ EMOSİONAL ƏLAQƏ QURMAQ .......... 120
*On yeddinci fəsil.* TƏSİRLİ GÖRÜNTÜLƏRDƏN İSTİFADƏ .......... 125
*On səkkizinci fəsil.* ONLARIN MARAĞINI OYATMAQ .......... 130
*On doqquzuncu fəsil.* ÇIXIŞINIZA YUMORU NECƏ ƏLAVƏ EDƏ BİLƏRSİNİZ? .......... 136
*İyirminci fəsil.* RİTORİK SUALLARDAN İSTİFADƏ .......... 140

**Altıncı hissə: HEKAYƏ**

*İyirmi birinci fəsil.* “SUBWAY” BİR HEKAYƏ İLƏ SATIŞLARINI İYİRMİ FAİZ NECƏ ARTIRDI .......... 146
*İyirmi ikinci fəsil.* MÖHTƏŞƏM HEKAYƏLƏRİN BEŞ “C” QAYDASI .......... 149
*İyirmi üçüncü fəsil.* İNANDIRICI HEKAYƏ DANIŞMAQ ÜÇÜN ÇATDIRMA TEXNİKALARI .......... 155
*İyirmi dördüncü fəsil.* TED NİTQİNİZƏ HAZIRLAŞMAĞIN 8 YOLU .......... 164
*İyirmi beşinci fəsil.* MÜKƏMMƏL TED NİTQİ NECƏ OLMALIDIR? .......... 167

AKAŞ KARİA İLƏ İŞLƏMƏK .......... 170
SUALLAR VƏ YA ŞƏRHLƏR? .......... 174

# GİRİŞ

## Bu kitabın böyük vədi

Əgər TED çıxışlarına (www.Ted.com) baxmısınızsa, şübhəsiz ki, Ser Ken Robinson, Jill Bolte Taylor, Saymon Sinek və Dan Pink kimi şəxsiyyətlərin nitqlərindən ilham almış və valehlənmisiniz.

Bu TED çıxışlarını bu qədər ilhamverici edən nədir? Uğurlu TED çıxışı yaratmağın sirli formulu nədir? Və siz bu formuldan güclü TED çıxışınızı (və ya hər hansı başqa təqdimat və ya nitqinizi) çatdırmaq üçün necə istifadə edə bilərsiniz?

Əgər bu kitabdakı təlimat və alətləri izləsəniz, zəmanət verirəm ki, auditoriyanızın sizin nitq və təqdimatlarınıza heyran qalmaqdan başqa seçimi olmayacaq.

# SİZİN PULSUZ HƏDİYYƏLƏRİNİZ

Bu kitabı aldığınıza görə təşəkkür etmək məqsədilə sizə üç bonus resurs təklif etmək istəyirəm:

**1. Audio yükləmə: TED çıxışlarından 23 hekayə danışma texnikası**

Güclü hekayəçi olmaqla dinləyicilərinizi valeh etmək istəyirsiniz? Eyniadlı beynəlxalq bestseller kitaba əsaslanan bu pulsuz səsli kitabda siz hekayə danışmaq sənətindən istifadə edərək digər natiqlərdən üstün olmağı öyrənəcəksiniz.

**2. 9 həftəlik inandırıcı nitq üçün hekayə danışma kursu**

Bu, müştərilərimə təklif etdiyim elit e-poçt proqramıdır. 9 həftə ərzində sizə göndəriləcək lazımsız söz-söhbətdən uzaq məktublarla hekayə anlatma texnikasından istifadə edərək öz imicinizi formalaşdırmağı, daha çox uğur qazanmağı və təsirli, güclü natiqə çevrilməyi öyrənəcəksiniz.

**3. Əlavə praktiki nümunə: uğurlu TED çıxışının təhlili**

Mən sizin üçün əlavə bir tədqiqat işi hazırlamışam. Bu araşdırmada Kelli Mak Qoniqalın möhtəşəm TED çıxışını təhlil edir və sizə də inandırıcı təqdimatlar hazırlamağı, inkişaf etdirməyi və təqdim etməyi necə öyrənə biləcəyinizi göstərirəm.